**Azərbaycanin təbii şəraitinin və ehtiyatlarinin qiymətləndirilməsi**

**İzahat vərəqəsi**

Azərbaycanin təbii şəraitinin və yhtiyatlarinin iqtisadi coğrafi qiymətləndirilməsi fənni BDU-nun coğrafiya fakültəsində «Azərbaycanın fiziki coğrafiyası» ixtisası üzrə təhsil alan magistranrlara 2-ci kursun 1-ci semestrində 60 saat həcmində (30 saat mühazirə 30 saat məşğələ) tədris edilir.

Kursun tədris edilməsinə tələb müasir dövrün reallığından irəli gəlmişdir.Belə ki,Yer kürəsində insanların məskunlaşması üçün əlverişli landşaft –ekoloji şəraitə malik ərazilərdə əhali sıxlığı yüksək həddə çatmış və nəticədə təbii resurslar ilə təminat problemində təhlükəli vəziyyət yaranmışdır.

“Azərbaycanın təbii şəraitinin və ehtiyatlarının iqtisadi coğrafi qiymətləndirilməsi”kursunun məqsədi:

- coğrafi mühitin əsas elementi olan təbii şəraiti insanlar üçün ən mühim yaşayış( qida,geyim və s.) mənbəyi kimi qiymətləndirmək;
- və təbii ehtiyatların qiymətləndirilməsi üçün qəbul edilən meyarları tətbiq etmək;
- ölkədə mövcud olan təbii şərait və təbii ehtiyatları iqtisadi cəhətdən qiymətləndirmək məsələlərini öyrətməkdir.

**Mövzular üzrə saatların paylanması**

| № | Mövzular | Cəmi | O cümlədən | |
|---|---|---|---|---|
| | | | ьüh. | lab. |
| 1. | Azərbaycanin təbii şəraiti və təbii ehtiyatları | 4 | 2 | 2 |
| 2. | Təbii şərait və təbii ehtiyat-ların йiymətləndirilməsi metodları | 8 | 4 | 4 |
| 3 | Azərbaycanın mineral ehtiyatlarının qiymətləndiril-məsi. Yanar, filiz və qeyri-filiz ehtiyatlarından istifadə | 8 | 4 | 4 |
| 4. | Azərbaycanın relyefi və onun iqtisadi coğrafi baxımdan iymətləndirilməsi | 4 | 2 | 2 |
| 5. | Azərbaycanda iqlimin iqtisadi | 4 | 2 | 2 |

| | | | | |
|---|---|---|---|---|
| | baxımdan qiymətləndirilməsi | | | |
| 6. | Azərbaycanın daxili sularından istifadə. Xəzər dənizinin iqtisadi – coğrafi qiymətləndirilməsi | 4 | 2 | 2 |
| 7. | Azəbaycanda torpaq ehtiyatları və qiymətləndiril-məsi | 4 | 2 | 2 |
| 8. | Azərbaycanda bioloji (bitki və heyvanat aləmi) ehtiyat-ların йiymətləndirilməsi. Meşələr. Qoruq və milli parkların əhəmiyyəti | 4 | 2 | 2 |
| 9. | Azərbaycanın kurort-turizm ehtiyatlarının qiymətləndiril-məsi | 4 | 2 | 2 |
| 10 | Ətraf mühitin kompleks qiymətləndirilməsi prinsipləri | 4 | 2 | 2 |
| 11. | İqtisadi rayonların təbii şəraitinin qiymətləndirilməsi | 3 | 2 | 1 |
| 12. | Azərbaycanda ekoloji problemlər | 4 | 2 | 2 |
| **Cəmi** | | **60** | **30** | **30** |

**Mövzular və onların məzmunu.**

**1. Azərbaycanın təbii şəraiti və təbii ehtiyatları.** Respublikanın fiziki və iqtisadi coğrafi mövqeyinin təbii şəraitinə təsiri.

Ölkənin Avropa və Asiya qitələrini birləşdirici rolunun tarixən dəyişməsi. Azərbaycanda sənaye, kənd təsərrüfatı,nəqliyyat və turizmin inkişafında təbii şərait və ehtiyatların rolunun təhlili.

**2. Təbii şərait və təbii ehtiyatların qiymətləndirilməsinin metodları.** Tarixilik, müqayisə,statistik,kartoqrafik metodların köməyi ilə ərazinin sistemli öyrənilməsi. Məkan və zaman daxilində təbii şəraitin dəyişməsi.Təbii ehtiyatlar ilə təmin olunmanın hesablanması.Təbii şərait və təbii ehtiyatlardan istifadə prosesində ətraf mühitin dəyişməsi və təbiətin mühafizəsi mühüm amil kimi.

**3.Azərbaycanın mineral ehtiyatlarının qiymətləndirilməsi.** Mineral ehtiyatların yanacaq(enerji), metallurgiya,kimya və inşaat qrupları üzrə təsnifatı. Yeraltı ehtiyatların bərpa olunmaması.Azərbaycan ərazisində mineral ehtiyatların yayılmasının müxtəlifliyi. Yeraltı

sərvətlərin çatacağı illərin hesablanması. Mineral sərvətlərin A (sənaye ehtiyatları),B (öyrənilmiş ehtiyatlar) və C ( ehtimal olunan) qrupları üzrə bölgüsü.

Yanacaq –enerji balansı.Nef və qaz ehtiyatlarının yerləşməsi qanunauyğunluğu.Yanacaq ehtiyatlarının çıxarılası üsulları.Neft və qazın maya dəyərinə təsir edən amillərDəniz və quruda mövcud olan ehtiyatlarınçıxarılması üsulları.Ən mühüm neft və qaz yataqları.Neft və qaz hasilatının ətraf mühütə təsiri.

Filiz faydalı qazıntıların yayılması qanunauyğunluğu.Ölkə ərazisində mövcud olan və metallurgiya məqsədi ilə istifadə oluna bilən filizlər. Filiz ehtiyatlarının hasilatında relyef amili.Dəmir filizi ehtiyatlarınin və hasilatınının iqtisadi cəhətdən qiymətləndirilməsi(filizin tərkibi,daşınması bə s.).Qara metallurgiyada istifadə olunan digər filizlər.

Əlvan metallurgiya resursları.Əlvan metalların kompleks yerləşməsinin iqtisadi səmərəliliyi.Sənaye əhəmiyyətli civə,qızıl,molibden,mis vəs.ehtiyatları.

Qeyri-filiz ehtiyatlarının müxtəlifliyi.Respublika ərazisində tikinti,kimya kənd təsərrüfatı və digər sahələrdə istifadə edilən ehtiyatların yerləşməsi.Ən mühüm əhəngdaşı yataqlarının təlabat rayonlarına yaxın yerləşməsinin iqtisadi səmərəliliyi. Mineral ehtiyatların hasilatının yaratdığı ekoloji problemlər.

**4. Azərbaycan relyefi və onun iqtisadi cografi baxımdan qiymətləndirilməsi.** Ölkə ərazisində relyefin müxtəlifliyinin səbəbləri.Relyefin insan həyatında rolu.Dağların maneə kimi ərazinin iqliminə təsiri.Dağlıq ərazilərdə məskunlaşmanın çətinlikləri(tunel çəkilməsi,yollar,suvarma əkinçiliyi və s.).Düzənlik ərazilərdə mövcud olan problemlər.Respublika ərazisində mövcud olan ekzogen relyef formalarının təsərrüfata təsiri.Müxtəlif ərazilərdə mikrorelyefin əsaslı dəyişilməsinin səbəbləri.

**5. Azərbaycan iqlimi və iqtisadi cəhətdən qiymətləndirilməsi.** Ərazinin geoloji quruluşunun müxtəlifliyinin səbəbləri. Tarixi dövrdə ölkə ərazisində iqlimin dəyişməsi.Azərbaycan iqliminin mürəkkəbliyinin səbəbləri.İqlim şəraitinin kənd təsərrüfatına bilavasitə təsiri.İqlimin mövsümi dəyişkənliyinin təsərrüfata təsiri.Respublika ərazisində qış dövrünün qısa olmasının üstünlükləri.Hündürlüyə doğru iqlim tiplərinin müxtəlifliyinin əhalinin həyat fəaliyyətinə və təsərrüfatın strukturuna təsiri.İqlimdə baş verən ritmik dəyişiklərin əhalinin həyat və fəaliyyətinə təsiri.

Son illərdə baş verən iqlim hadisələri.Kənd təsərrüfatına quraqlığın təsiri.İri şəhərlərdə ( Bakı ,Sumqayıt,Gəncə və s.) mikroiqlim dəyişikləri.

**6. Azərbaycanın daxili suları və iqtisadi cəhətdən qiymətləndirilməsi.** Ölkə ərazisinin ekvator ilə şimal qütbü arasında yerləşməsinin iqlimə təsirinin müəyyən edilməsi.Azərbaycanın su ehtiyatları.Respublika ərazisində mövcud olan çay,göl və digər su mənbələrinin səciyyəvi əlamətləri.Suya olan tələbatın ödənilməsi yolları.Çayların təsərrüfat baxımından qiymətləndirilməsi-suyun enerji,nəqliyyat, kənd təsərrüfatı,məişət əhəmiyyəti.Su rentası.Torpaqların melorasiyasında su ehtiyatlarının iqtisadi qiymətləndirilməsi.Yeraltı sulardan istifadə.Su anbarları,suvarma kanalları,içməli su kəmərlərinin iqtisadi göstəriciləri.İri şəhərlərdə suya olan tələbatın ödənilməsi.Şirin su probleminin Azərbaycanda vəziyyəti.Sel və daşqınların təsərrüfata vurduğu ziyanın hesablanması.

Xəzər dənizinin Azərbaycanın təbii şəraitinə təsiri.Ölkə iqtisadiyyatında dənizin rolu.Xəsər dənizinin qiymətləndirilməsininmüasir aspektləri.

**7. Azərbaycanın torpaq ehtiyatlarının qiymətləndirilməsi.** Torpaq ehtiyatlarının müxtəlifliyi. Respublika ərazisində əhalinin torpaq ilə təminatlılıq dərəcəsinin fərqləri. Torpaqların təbii və iqtisadi məhsuldarlığı.Torpaq rentası.Torpağın keyfiyyətinə görə qiymətləndirilməsi.Torpaq kadastrı.Torpaqlardan kənd təsərrüfatında və qeyri kənd təsərrüfatında istifadəsinin problemləri. Tikinti işlərində torpağın zədələnməsi. Torpaqların rekultivasiyası.Ekoloji cəhətdən torpaqların qiymətləndirilməsi.Torpaq eroziyası.Torpaq sürüşmələrinin yaranmasında insan amili.

**8.Azərbaycanın bioloji (bitki və heyvanat aləmi) ehtiyatlarının qiymətləndirilməsi.** Bioloji ehtiyatların yayılması qanunauyğunluğu.Azərbaycan ərazisində zonal və azonal,intrazonal və inversiya landşaftlarının paylanması. Meşə ehtiyatları. Meşələrin qiymətləndirilməsinin təsnifatı.Respublika ərazisində meşələrdən istifadənin yaratdığı problemlər.Təbii otlaq və biçənəklər. Yay və qış otlaqlarının qiymətləndirilməsi. Dərman bitkilərinin yayılması. Respublikanın su hövzələrində yayılan canlı aləmin müxtəlifliyi.Meşə heyvanları,quşlar.Meşələrin qorunması.

**9.Azərbaycanın kurort-turizm ehtiyatlarının qiymətləndirilməsi.** Təbii şəraitin istrahət,sanatoriya və turizm üçün qiymətləndirilməsi.Turizmin müxtəlif istiqamətlərinin inkişafı üçün mövcud olan təbii .iqtisadi və sosial imkanlar.Turizm təsərrüfatının iqtisadi əhəmiyyəti.Xəzər sahili çimərliklərin istirahət,mineral və termal bulaqların( o cümlədən Naftalan) müalicə əhəmiyyəti.

**10.Ətraf mühütin kompleks qiymətləndirilməsi prinsipləri. İnsan və ətraf mühit.** Cografi məkanın insan həyatı üçün əhəmiyyəti. Təbii landşaft ekosistemlərin qorunmasının vacibliyi. Məskunlaşma tiplərinin təbii şəraitə təsiri.Antrpogen amillərin ətraf mühütə təsirinin nəticələri. Ölkə ərazisində baş verən təbii fəlakətlərin yaranmasinda insan amiliin rolu. Təbii və antropogen çirklənmə mənbələri. Tullantıların tərkibinə görə quruplaşdırılması. Hasilat və emal sənayesinin ətraf mühitə təsiri. Ətraf mühitin mühafizəsinin iqtisadi göstəriciləri. Ətraf mühitin mühafizəsinin (ƏMM) başlıca problemləri.

**11.İqtisadi rayonların təbii şəraitinin qiymətləndirilməsi.** Respublikanın ayrı-ayrı regionlarında iqtisadi duruma təsir edən amillər və onların qiymətləndirilməsi.Regionlar arası iqtisadi əlaqələrin yaradılmasına olan tələbatın ödənilməsinin,ölkə iqtisadiyyatına təsiri.

**12.Azərbaycanda ekoloji problemlər.** Qlobal, egional və lokal miqyaslı ekoloji problemlər. Respublikada təbiətdən istifadənin nəzəri problemləri.Ekoloji tarazlığın qorunmasına verilən tələblər.İqtisadiyyatın inkişafının ətraf mühütə mənfi təsirlərinə aid nümunələr.Ekoloji gərginliyin aradan qaldırılması yolları. İqtisadiyyatın ekologiyalaşdırılması.

## Ədəbiyyat

Əsas

1.Azərbaycan Respublikası regionlarının sosil-iqtisadi inkişafı.(2008-2012-ci illər) Dövlət proqramı.Bakı,2008.

2.Azərbaycanın müasir ekocoğrafi şəraitnin dəyişməsində antropogen amillərin rolu. BDU. Bakı 2009.

3.Nadirov A. Azərbaycan iqtisadiyyatı.Bakı 2003.

4.Məmmədov Q. Torpaqşunaslıq və torpaq coğrafiyasının əsasları.Bakı 2007.

5.Həsənov T.Coğrafiyanın tədqiqat metodları.Bakı 1990.

6.Sauşkin Y. İqtisadi cografiyaya giriş. Bakı 1981.

7.Həsənova L. Dağ-mədən sənayesi və ətraf mühit.Bakı 1996.

8. Xəlilov T. Ekologiya və ətraf mühiti mühafizənin əsaslarıBakı 2009.

9.Babaxanov N.Paşayev N. Təbii fəlakətlərin iqtisadi və sosial-coğrafi öyrənilməsi.Bakı 2004.

10.Alaev E.Soçialno-qeoqrafiçeskaya qeoqrafiya Moskva .1983.

11.Qadjızade A. Prirodnıe resursı i estestvennıe uslovie razvitie promışlennosti Azerbaydjanskoy SSR .Baku 1983.

12.Əliyev Ş.Azərbaycan Respublikası yeraltı su ehtiyatlarından istifadə problemləri.Bakı,2000.

**Əlavə**

1.Göyçaylı Ş,İsmaylov T. Təbiətdən istifadənin iqtisadi və ekoloji əsasları.Bakı 2006.

2.Talıbov A. Kartoqrafiçeskiy analiz landşaftno-ekoloqiçeskoqo usloviya Abşeronskoqo poluostrva.Baku 2004.

3.Abbasov C. Azərbaycanın iqtisadi və sosial coğrafiyası.Bakı 1998.

4.Allahverdiyev N. Azərbaycan SSR iqtisadi və sosial coğrafiyası.Bakı.1991.

5.Zeynallı Ə.Azərbaycan kənd təssərrüfatı coğrafiyasının müasir problemləri.Bakı 2005.

6.Qurbanzadə A. Aqrar strukturun regional inkişaf modeli:iqtisadi -coğrafi konsepsiyası.Bakı,2004.

7.Məmmədov Z. Regionların iqtisadi inkişaf problemləri.Bakı 2007.